*Afinada "20 Yanvar" konfransı*

**Azərbaycan tarixi və müstəqillik uğrunda mübarizəsi ilə bağlı Yunanıstanın paytaxtı Afinada konfrans təşkil edilib. Afinanın Webster Universiteti və Azərbaycanın Yunanıstandakı səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən konfrans barədə xəbər news.webster.edu saytında yerləşdirilib.**

Xəbərdə bildirilir ki, tədbir Sovet qoşunlarının 1990-cı il yanvarın 20-də törətdiyi qətliamın 30-cu ildönümünə həsr edilib. Konfransda tarix, mədəniyyət, iqtisadiyyatla əlaqədar müxtəlif təqdimatlar olub. Çıxışçılar ötən dövr ərzində ölkənin siyasi inkişafından, təhsil və texnologiya sahəsində əldə etdiyi nailiyyətlərdən və uğurlu əməkdaşlıqlarından söz açıblar.

Xəbərdə bildirilir ki, konfransda Azərbaycanın Yunanıstandakı səfiri Anar Hüseynov, analitik Athanasios Drougos, doktor E.Venetis, eləcə də müxtəlif universitetlərdən olan nümayəndələr iştirak ediblər.

# Xarici mətbuat Azərbaycan haqqında

### *Doğma yerin gücü*

Rusdilli "Vesti Kafkaza" saytında "Bakıda ağac əkməklə, bulvarı daha rahat, özümü isə daha xoşbəxt etmişəm" sərlövhəli məqalə dərc edilib. Oleq Kusovun hazırladığı materialda onun Bakıya olan sevgisi, bu şəhərə bağlılığı diqqəti cəlb edir. Publisistik üslubda qələmə alınmış məqalədə müəllif yazır: "Hər bir kəsin sevimli şəhəri, orada sevimli yeri və ya məkanları olur. Bakıda mənim çoxlu sevimli məkanım var: Qız qalası, İçərişəhər, Dənizkənarı bulvardakı çayxana və "Tarqovı" (Nizami küçəsi) adlanan küçədəki qəhvəxana. Bu siyahıya Müslüm Maqomayevin böyüdüyü evin həyəti də daxildir. Ola bilər, ona görə ki, o, mənə Vladiqafqazın mərkəzində yerləşən, böyüdüyüm cənub həyətini xatırladır".

Müəllif bildirir ki, Maqomayevə Parisdə SSRİ-ni tərk etmək müqabilində müqavilə təklif edəndə sənətkar, hər şeydən əvvəl, onu həmin həyətdə böyütdüyü Camal əmisi haqqında düşünmüş və demişdi: "Bu Bakı həyətini dünyanın ən yaxşı meydanlarına, milyon dollara da dəyişə bilmədim Doğma yerin gücü belədir."

Oleq Kusov yazır ki, Bakıda doğulmasa da, bu şəhərdə, Dənizkənarı parkda, Qız qalasının yaxınlığında onun öz ağacı var: "Bu yer mənim üçün Bakıda ən sevimli və doğma məkana çevrilib. 2003-cü ilin payızında burada ağac əkmişəm. Həmin ilin günəşli oktyabr günü Rusiya Federasiyasının Jurnalistlər Birliyinin böyük nümayəndə heyətini Bakının o vaxtkı meri Hacıbala Abutalıbov qarşıladı. O, qeyri-adi görünürdü: əlində bel var idi. "İndi isə hörmətli qonaqlar, ağac əkəcəyik", – deyə çoxsaylı tinglərin sırasını göstərərək təklif etdi. Ağacın əkilməsi nəcib bir işdir, belə ki, sən bitkinin həyatını uzadırsan, bir neçə ildən sonra ağac öz meyvələri və dekorativ estetikası ilə insanları sevindirir. Ağac əkmək savab işdir, ancaq onu Dənizkənarı bulvarda əkmək ikiqat xoşbəxtlikdir."

Müəllif məqaləsində verdiyi sözü tutaraq, Bakıya hər səfəri zamanı əkdiyi ağacın yanına gəldiyini, onun kölgəsində qoyulmuş skamyada oturub dənizi seyr etdiyini vurğulayır.

### *Azərbaycan qazı Bolqarıstana çatdırılacaq*




Ukraynanın "24tv.ua" saytında "Bolqarıstan Rusiya qazını Azərbaycan və ABŞ qazına dəyişir" sərlövhəli məqalə dərc edilib. Məqalədə bildirilir ki, 2020-ci ilin sonuna qədər Bolqarıstanda Rusiyadan alınan qazın yarısının əvəz edilməsi planlaşdırılır. Əvəzində isə ölkə Azərbaycandan və ABŞ-dan maye qaz alacaq. Məqalədə bu barədə Bolqarıstanın energetika naziri Temenujka Petkovanın açıqlama verdiyi qeyd edilib: "Bolqarıstan Azərbaycan qazını 2019-cu il noyabrın sonunda istifadəyə verilmiş TANAP-dan almağı planlaşdırır. Həmçinin Bolqarıstanın planında ABŞ-dan alınan təbii maye qazın həcminin artırılması da var. Belə ki, sözügedən qaz digər ölkələrə Yunanıstanda yerləşən terminaldan çatdırılır".

### *Bakı məscidləri türk mətbuatında*




Türkiyənin "Anadolu" agentliyi "Bakıya gözəllik qatan məscidlər" sərlövhəli fotoreportaj hazırlayıb. Reportajda Bakının müxtəlif məkanlarında yerləşən məscidlərin şəkilləri yer alıb. İçərişəhərdəki Cümə məscidi, Şəhidlər xiyabanı yaxınlığında ucalan Türk şəhidliyi, Bibiheybət, Təzəpir, eləcə də Qafqazın ən böyük məscidlərindən olan Heydər Məscidinin müxtəlif görüntüləri oxuculara təqdim edilib.

Agentlik bildirir ki, şəhərin tarixi və yeni məscidləri ibadət edən şəxslərlə yanaşı, Azərbaycana gələn turistlərin də diqqətini cəlb edir.

### *Yük daşımaları on dəfələrlə artır*

İran İslam Respublikasının İRİB xəbər agentliyi "Bakı – qonşularla əməkdaşlıq" sərlövhəli məqalə hazırlayıb.

Worldmedia.az saytının tərcümə etdiyi məqalədə bildirilir ki, Azərbaycan beynəlxalq tranzit imkanlarından faydalanmaq məqsədilə son illər qonşu ölkələr, o cümlədən İran İslam Respublikası ilə birgə regional layihələr reallaşdırır.

Azərbaycan iqtisadiyyatın qeyri-neft sektorunu inkişaf etdirməyi, mövcud tranzit imkanlarından istifadə etməklə, neftdən asılı iqtisadiyyatdan qurtulmağı hədəfləyir. Bu məqsədlə o, region ölkələri ilə əməkdaşlığın genişləndirilməsini iqtisadi fəaliyyətinin prioritetlərindən biri elan edib.

Məqalədə vurğulanır ki, tranzit imkanlarından gen-bol istifadə etməyi hədəfləyən Bakı üçün "Şimal – Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsinin tamamlanması da prioritetlərdən biridir. Müəllif Bakının son illərdə "Şimal – Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşdırılmasında İran və Rusiya ilə sıx əməkdaşlıq etməsində qeyd edir.

Bu məsələnin Azərbaycan və İran prezidentləri İlham Əliyevlə Həsən Ruhani arasında dəfələrlə müzakirə olunduğu xatırladılır: "Danışıqlar və müvafiq sazişlər nəticəsində son bir ildə "Şimal--Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi çərçivəsində Azərbaycan – İran dəmir yolunun birləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. İndi bunun üçün dəmir yolunun Rəşt–Astara hissəsi inşa edilir. Hazırda "Şimal–Cənub" dəhlizi ilə İrandan Azərbaycana və digər ölkələrə yük daşımaları İran ərazisində kombinasiyalı nəqliyyat formasında həyata keçirilir. "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbəri Cavid Qurbanovun sözlərinə görə, "Şimal–Cənub" dəhlizi İrandan yük daşımalarının həcminin artırılması baxımından xüsusi əhəmiyyət daşıyır. O, bildirib ki, 2017-ci ildə bu dəhliz vasitəsilə İrandan Azərbaycana 27 min ton yük daşınmışdısa, 2018-ci ildə bu göstərici düz 10 dəfə artaraq, 270 min tona çatıb. 2019-cu ildə isə bu yolla təxminən 364 min ton yük daşınıb".

İRİB xəbər agentliyinin bildirdiyinə görə, Azərbaycan İranla birlikdə "Şimal--Cənub" dəhlizinin ikinci dərəcəli qolu sayılan "Cənub--Qərb" dəhlizi ilə də yüklərin daşınmasına çalışır. Bu qolun istifadəyə verilməsi yüklərin İran, Azərbaycan, Gürcüstan və Qara dəniz vasitəsilə Avropaya daşınmasına yol açacaq.

Daha sonra qeyd edilir: "Bakının Ələt qəsəbəsində, Xəzər dənizi sahilində istismara verilmiş Beynəlxalq Ticarət Limanı, eləcə də bu limanda İranın Ənzəli və Əmirabad limanları ilə beynəlxalq əməkdaşlığa imkan yaradacaq bərə terminalının istifadəyə verilməsi, Bakıdan İran sərhədinədək beynəlxalq magistral yolun inşası, Azərbaycan – Gürcüstan sərhədinədək magistral yolun əsaslı təmiri, həmçinin Azərbaycan – Rusiya sərhədinin böyük bir hissəsinin yenidən qurulması Azərbaycan hökumətinin öz tranzit imkanlarını artırmaq istiqamətində atdığı addımlardandır. Bütün bu layihələrin tamamlanması İrandan Azərbaycana tranzit və yük daşımalar həcminin artmasına imkan verəcək ki, bu da hər iki ölkənin iqtisadi inkişafına öz təsirini göstərəcək".

**Əfsanə BAYRAMQIZI,**
**"Xalq qəzeti"**

Xalq qəzeti.-2020.-6 fevral.-S.6.